# QARABAĞ AZƏRBAYCANDIR!


# İŞIQ

*İctimai-siyasi qəzet*

| Qəzet 1930-cu ildən çıxır | ŞİRVAN ŞƏHƏRİ | №13 (7484) | 2 oktyabr 2020-ci il | Cümə | Qiyməti 20 qəp. |
|---|---|---|---|---|---|




## Bizim işimiz haqq işidir. Qələbə bizimlədir!

*İlham Əliyev,*
*Azərbaycan Respublikasının Prezidenti,*
*Silahlı Qüvvələrin Ali Baş Komandanı*

## Şəhidlərə xatirə kompleksləri ucaldıldı

**Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin və Birinci vitse prezidenti, hörmətli Mehriban xanım Əliyevanın müdrik rəhərliyi ilə ölkəmizin ərazi bütövlüyü, müdafiəsi uğrunda həlak olan Şəhidlərin xatirəsi daim əziz tutulur. Şəhid ailələrinə, Qarabağ müharibəsi əlillərinə, məcburi köçkünlərə, xüsusi diqqət və qayğı göstərilir. Onların sosial problemləri ardıcıl həll edilir. Təqdirəlayiq haldır ki, dövlət başçısının həyata keçirdiyi bu siyasət, gördüyü işlər yerlərdə də davam etdirilir. Gənclərin vətənpərvərlik tərbiyəsinə xüsusi önəm verilir. Şirvan şəhər İcra Hakimiyyətinin son vaxtlar həyata keçirdiyi tədbirlər, gördüyü işlər buna parlaq nümunədir.**




5 sentyabr 2020-ci il tarixdə Şirvan şəhər İcra Hakimiyyətinin təşkilatçılığı ilə şəhidlərin xatirəsinə həsr olunmuş növbəti anım tədbiri keçirilib. Şirvan şəhər İca Hakimiyyətinin başçısı İlqar Abbasov, Polis şöbəsinin rəisi Hikmət Quliyev, Şirvan şəhər Bələdiyyəsinin sədri Kürdoğlu Muradov və ictimaiyyət nümayəndələri xüsusi karantin rejiminin qaydaları gözlənilməklə şəhərin "Kürkörpü" adlanan yaşayış massivində, şəhid Vüqar Yadigar oğlu Kərimovun və şəhid İmran Nəriman oğlu Quliyevin xatirəsinə ucaldılan abidə kompleksinin açılışına qatılıblar.

Açılış mərasimində hər iki şəhidin valideynləri, ailə üzvləri iştirak edib. Öncə şəhidlərin xatirəsi anılıb. Abidə kompleksi önünə gül-çiçək dəstələri qoyulub.

Mərasimdə Şirvan şəhər İcra Hakimiyyətinin başçısı İlqar Abbasov çıxış edib.

Natiq Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin və Birinci vitse-prezidenti, hörmətli Mehriban xanım Əliyevanın rəhbərliyi ilə ölkəmizin hərtərəfli inkişafında əldə olunan uğurlardan, regionların sosial-iqtisadi inkişafına, əhalinin sosial rifah halının yaxşılaşmasına, xüsusilə dövlətimiz, xalqımız qarşısında əvəzsiz xidmətləri olan insanlara, o cümlədən şəhid ailələrinə, Qarabağ müharibəsi əlillərinə, qaçqın və məcburi köçkünlərə göstərdikləri diqqət və qayğıdan danışıb. Bu qayğının dünyanı bürüyən koronavirus (COVİD-19) pandemiyası dövründə də davam etdirildiyini, nəzərdə tutulan bütün sosial layihələrin uğurla həyata keçirildiyini qeyd edib. İşğal olunmuş torpaqlarımızın tezliklə azad olunacağına əminliyini bildirib. Şirvanlıların həmişə dövlətə, dövlətçiliyə sadiq olduğunu qeyd edib. Şirvan şəhərində şəhidlərin xatirəsinə ucaldılan abidə kompleksinin inşasında əməyi olan hər kəsə minnətdarlığını bildirib. Şəhidlərin valideynlərinə, ailə üzvlərinə başsağlığı verib, şəhidlərə allahdan rəhmət diləyib.

Tədbirdə çıxış edən natiqlər şəhidlər Vüqar Yadigar oğlu Kərimovun və İmran Nəriman oğlu Quliyevin keçdiyi həyat yolundan, göstərdikləri qəhrəmanlıqdan danışıblar.

Tədbirdə şəhid Vüqar Kərimovun atası Yadigar Kərimov və şəhid İmran Quliyevin anası Arusə Quliyeva çıxış edərək, şəhidlərə verilən yüksək qiymətə, şəhid ailələrinə göstərilən diqqət və qayğıya görə Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevə və Birinci vitse-prezidenti, hörmətli Mehriban xanım Əliyevaya dərin təşəkkür və minnətdarlıqlarını bildiriblər.

## İRƏLİ, AZƏRBAYCAN ƏSGƏRİ, İRƏLİ!

**Sərhədsiz, hədsiz heç nə yoxdur. Səbir, dözüm də sonsuz, hüdudsuz deyil. Təxminən 30 ildir ki, xalqımız dözür, qonşulara güzəştə gedir, onları haqsız ərazi iddialarından xoşluqla çəkinməyə çağırır. Lakin ocağımızın başında yer verdiyimiz nankor ermənilər havadarlarına arxalanaraq zərrə qədər də utanmadan hər dəfə müxtəlif bəhanələr gətirərək işğal etdikləri 20 faiz torpağımızdan əl çəkmədikləri bir yana, dünyanın hər yerinə yayırlar ki, bu ərazilər bizimdir. " Dənizdən-dənizə"yer-yurd bizimdir.**





Erməni hiyləgərliyi, erməninin xain xisləti barədə çox eşitmiş, çox görmüşük. Bununla belə bir azərbaycanlı, müsəlman kimi səbrlə hərəkət etmiş, erməniləri haqsız iddialarından xoşluqla çəkindirməyə çalışmışıq. Dövlət səviyyəsində aparılan danışıqlarda da sülh yolu ilə problemin həllinə səy göstərilib. Azərbaycan Prezidenti,Silahlı Qüvvələrimizin Ali Baş Komandanı İlham Əliyev, Birinci vitse-prezident Mehriban xanım Əliyeva bu istiqamətdə məqsədyönlü işlər aparmışlar. Təəssüf ki, erməni riyakarlığından əl çəkmir, işğal etdikləri Azərbaycan torpağında özlərini sahib kimi aparırlar. Yeri gəldikcə təkcə Qarabağ torpağında-təmas xəttində deyil, Azərbaycanın Qarabağdan kənardakı sərhədlərində təxribatlar törədir, düşmənçiliklərindən çəkinmirlər.

Azərbaycan ordusu dəfələrlə onlara tutarlı cavab verməyib. 2016-cı ilin Aprel döyüşləri buna aydın misaldır.

Bu ilin iyulunda isə erməni silahlı qüvvələri Tovuz rayonu ərazisindəki sərhəddimizdə təxribat törətdilər. Milli Ordu əsgərləri düşmənə tutarlı cavab verdi.

Sentyabrın 27-də erməni işğalçıları cəbhəboyu ərazilərdə bir neçə istiqamətdən Azərbaycanın yaşayış məntəqələrini, o cümlədən hərbi mövqeləri ni atəşə tutmuşlar.

Ermənistan tərəfinin təxribatı nəticəsində mülki əhali və hərbiçilərimiz arasında itkilər olmuşdur. El arasında belə bir deyim var: "Düşmən təslim olmayanda onu məhv edərlər". Milli Ordumuzun igid oğulları düşmənə layiqli cavab verərək, erməni quldur dəstələrini uzun illərdir işğal altında saxladıqları ərazilərdən geri çəkilməyə məcbur etmişlər. Düşmən xeyli hərbi texnika və canlı qüvvə itirmişdir. Azərbaycan əsgəri ölkə Prezidenti, Silahlı Qüvvələrimizin Ali Baş Komandanı İlham Əliyevin əks-hücüm əmrini uğurla həyata keçirir.

Bəli, Azərbaycan ordusu öz torpaqlarında vuruşur, erməni əsgərinin ayaqları bizim torpağımızdan çəkilməlidir.

Müzəffər ordumuzun igid əsgər və zabitləri düşmən postlarını darmadağın edir, hakim, strateji əhəmiyyət daşıyan yüksəklikləri nəzarətinə götürür. Bu xalqımızı hədsiz sevindirir.

Bəli, xalq ordusuna inanır. Ordu da xalqına. İnanırıq ki, qüdrətli ordumuz tez bir zamanda işğal edilmiş bütün torpaqlarımızı azad edəcək.Üçrəngli Azərbaycan bayrağı Cəbrayılda, Şuşada, Laçında, Kəlbəcərdə, Xocalıda, Qubadlıda, Zəngilanda, bütün Dağlıq Qarabağda dalğalanacaq.

İrəli, Azərbaycan əsgəri, irəli!

**"İŞIQ"**

# Şirvan şəhərində müasir Reabilitasiya Mərkəzi açıldı

**Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi Şirvan şəhərində Reabilitasiya Mərkəzini əsaslı təmir və yenidənqurmadan sonra istifadəyə verib. Müəssisənin açılışında Əmək və Əhalinin Sosial Müdafiəsi naziri Sahil Babayev və Şirvan şəhər İcra Hakimiyyətinin başçısı İlqar Abbasov iştirak ediblər.**



Tədbirdən öncə S.Babayev və İ.Abbasov ümummilli lider Heydər Əliyevin şəhərin mərkəzində ucaldılan abidəsini ziyarət edib, abidə önünə gül dəstəsi düzüblər.

Nazir S.Babayev tədbirdə çıxış edərək Prezident İlham Əliyevin göstərişi ilə ölkəmizdə reabilitasiya infrastrukturunun müasirləşdirilməsi istiqamətində son illərdə görülən işləri qeyd edib. Bildirib ki, 2019-cu ildə Yevlax, Naftalan Reabilitasiya Mərkəzləri, Mərdəkan Reabilitasiya Pansionatı, Protez-Ortopedik İstehsalat Mərkəzi, bu ilin avqust ayında isə Lənkəran, Şəki və Xaçmaz Reabilitasiya Mərkəzləri əsaslı təmir və yenidənqurmadan sonra istifadəyə verilib, bu gün isə daha bir müasir reabilitasiya müəssisəsi Şirvan şəhərində açılır. Bu da həm ardıcıl sosial inkişafın, həm də əlilliyi olan şəxslərə qayğının bir təzahürüdür.

Reabilitasiya sahəsində aparılan islahatlardan bəhs edən S.Babayev qeyd edib ki,cənab Prezidentin Fərmanı ilə Nazirliyin tabeliyində Dövlət Tibbi-Sosial Ekspertiza və Reabilitasiya Agentliyi publik hüquqi şəxsin yaradılması ekspertiza və reabilitasiya sahəsində xidmətlərin yeni optimal və təkmil model üzərində qurulmaqla daha çevik və keyfiyyətli, effektiv təşkilinə yönəlib. Bu islahat müvafiq sahədə mövcud resurslardan səmərəli istifadəyə, bərpa xidmətlərinin çeşidlərinin və əhatə dairəsinin genişlənməsinə xidmət edir.

S.Babayev bildirib ki, əsas hədəf əlilliyi olan vətəndaşların məmnun qala biləcəyi effektiv, keyfiyyətli, tam şəffaf xidmətlər sisteminin yaradılması, reabilitasiya müəssisələrinin fəaliyyətinin əlilliyi olan şəxslərin yenidən əmək qabiliyyətli insanlar kimi cəmiyyətə qazandırılması prinsipi üzərində qurulmasıdır.

Şirvan şəhər İcra Hakimiyyətinin başçısı İlqar Abbasov belə müasir reabilitasiya mərkəzlərinin yaradılmasının əlilliyi olan şəxslərə diqqət və qayğının daha bir göstəricisi olduğunu vurğulayıb. Əlilliyi olan şəxslər onların sosial müdafiəsi tədbirlərinin ildən-ilə geniş vüsət almasına, sağlamlıqlarının bərpası üçün reabilitasiya imkanlarının artırılmasına görə Prezident İlham Əliyevə minnətdarlıqlarını ifadə ediblər.

Sonra mərkəzdə yaradılan şəraitə baxış olub. Müəssisədə müasir şərait yaradılıb və mərkəz limfodrenaj, ozonoterapiya, maqnitoterapiya, hidroterapiya və digər yeni müasir tibbi-reabilitasiya aparatları və avadanlıqlarla da təchiz edilib. Burada səmərəli fizioterapevtik üsullar, müalicəvi bədən tərbiyəsi, kolonoterapiya, ozonoterapiya, elektrofarez və digər prosedurlar tətbiq ediləcək. Şirvan Reabilitasiya Mərkəzi Şirvan və ətraf rayonlar üzrə il ərzində 500-ə yaxın əlilliyi olan şəxsə tibbi-sosial reabilitasiya xidmətləri göstərəcək.

# Şirvan Şəhər İcra Hakimiyyətində 600-dən yuxarı bal toplayan məzunlarla görüş keçirildi

**Şirvan Şəhər İcra Hakimiyyətinin başçısı İlqar Abbasov 2019/2020-ci tədris ilində 600-dən yuxarı bal toplayan məzunlarla görüşdü. Xüsusi karantin rejiminin qaydaları gözlənilməklə keçirilən görüşdə çıxış edən şəhər İcra Hakimiyyətinin başçısı İlqar Abbasov öncə 600-dən yuxarı bal toplayıb tələbə adını qazanan məzunları, onların müəllim və valideynlərini təbrik etdi. İcra Hakimiyyətinin başçısı qeyd etdi ki, bu gün Azərbaycanda təhsilə qayğı ən yüksək səviyyədədir. Azərbaycanda təhsilin dünyanın inkişaf tendensiyalarına cavab verən səviyyəyə çatmasında Ümummilli Lider Heydər Əliyevin müstəsna xidmətlərinin olduğunu, respublikamıza rəhbərliyi dövründə təhsilə xüsusi diqqət və qayğı göstərdiyini, islahatların həyata keçirildiyini, ölkəmizdə yeni məktəbəqədər, ümumi, peşə, orta ixtisas və ali təhsil müəssisələrinin inşa edildiyini, güclü kadr potensialının yaradıldığını, istedadlı gənclərin xaricdə ən nüfuzlu ali təhsil müəssisələrinə oxumağa göndərildiyini bildirdi.**



İcra Hakimiyyətinin başçısı İlqar Abbasov bildirdi ki, Ulu Öndər Heydər Əliyev tərəfindən həyata keçirilən təhsil islahatları Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyev tərəfindən bu gün də uğurla davam etdirilir, qəbul edilən dövlət proqramları ardıcıl icra edilir, təhsilin maddi-texniki bazası gücləndirilir, xaricdə təhsil almağa göndərilən tələbələrin sayı ildən-ilə artır. Heydər Əliyev Fondu, Fondun Prezidenti, Azərbaycan Respublikasının Birinci vitse-prezidenti, hörmətli Mehriban xanım Əliyevanın ölkəmizdə təhsilin inkişafına göstərdiyi mütəmadi diqqət və qayğısı sayəsində "Yeniləşən Azərbaycana yeni məktəb", "Uşaq evləri və internat məktəbləri" layihələrinin uğurla icra edilməsi Azərbaycan təhsilinin inkişaf səviyyəsini daha da gücləndirir.

İlqar Abbasov son 17 ildə respublikamızda 3700-dən çox məktəbin tikildiyini və ya əsaslı təmir edildiyini, modul tipli yeni məktəb binalarının inşa olunduğunu qeyd etdi. Ölkədə təhsilin inkişafına göstərilən diqqət və qayğının yerlərdə də davam etdirildiyini bildirdi. Son illərdə Şirvan şəhərində də mövcud məktəblərin əsaslı və ya cari təmir edildiyini, 5 və 21 nömrəli tam orta məktəblər üçün yeni tədris binalarının tikildiyini qeyd etdi. Məktəblərdə tədrisin keyfiyyət göstəricilərinin ildən-ilə yaxşılaşması ilə yanaşı, gənc nəslin hərbi vətənpərvərlik ruhunda tərbiyəsinə də xüsusi önəm verildiyini bildirdi.

Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin müdrik rəhbərliyi ilə ölkəmizin hərtərəfli inkişaf etməsindən, həyata keçirilən ordu quruculuğundan, ordunun maddi-texniki bazasının möhkəmlənməsi sahəsində görülən işlərdən danışdı. Ermənilərin cəbhə bölgəsində və sərhəddə vaxtaşırı törətdiyi təxribatlara və təcavüzə qarşı ordumuzun layiqli cavab verdiyini qeyd etdi. Onların sentyabrın 27-də törətdiyi təxribata və hərbi təcavüzə də layiqli cavab verildiyindən, şanlı ordumuzun əks hücumu nəticəsində işğal altında olan torpaqlarımızın bir hissəsinin azad edilməsindən, strateji əhəmiyyət kəsb edən yüksəkliklərin fəth olunmasından danışdı. Əldə edilən qələbə münasibəti ilə görüş iştirakçılarını təbrik etdi.

Azərbaycan Respublikasının Prezidenti, Ali Baş komandan cənab İlham Əliyev başda olmaqla ordumuza, bütün əsgər və zabitlərimizə yeni-yeni qələbələr arzu etdi.

Görüşdə Şirvan Şəhər Təhsil Şöbəsinin müdiri Rövşən Allahverdiyev, YAP şəhər təşkilatının sədr müavini Paşa Nəbiyev, 1 nömrəli tam orta məktəbin müəllimi Pakizə Məmmədova, 16 nömrəli tam orta məktəbin məzunu Səkinə Əlizadə, respublika fənn olimpiadasının final mərhələsində biologiya fənni üzrə bürünc medal qazanan Türkan İsmayılzadə çıxış edərək 2019/2020-ci tədris ilində qazanılan uğurlardan danışdılar.

Əldə etdikləri uğurlara görə Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevə və Birinci vitse-prezident, hörmətli Mehriban xanım Əliyevaya dərin təşəkkürlərini və minnətdarlıqlarını bildirdilər.

Sonda Şirvan Şəhər İcra Hakimiyyətinin başçısı İlqar Abbasov təhsildə yüksək nəticələr əldə edən məzunları bir daha təbrik etdi, onları qiymətli hədiyyələrlə mükafatlandırdı.

# Şirvan şəhər prokurorluğunun əməliyyat işçilərinin 2020-ci ilin IV rübündə vətəndaşların yerlərdə qəbulunun keçirilməsinə dair

## C Ə D V Ə L

| № | Qəbulun keçirildiyi yer | Tarix | İcraçılar |
|---|---|---|---|
| 1 | Şirvan şəhəri, 5 saylı Nümunəvi məhəllə | 05.10.2020 | Prokuror Fuad Məmmədov |
| 2 | Şirvan şəhəri,Qaz İstismar İdarəsi | 30.10.2020 | Prokurorun köməkçisi Nəriman Nərimanlı |
| 3 | Şirvan Regional Enerji Təchizatı və Satışı İdarəsi | 02.11.2020 | Prokuror Fuad Məmmədov |
| 4 | Şirvan şəhəri , 20 saylı tam orta məktəb | 30.11.2020 | Prokurorun müavini Rain Əliyev |
| 5 | Şirvan şəhəri, 16 saylı tam orta məktəb | 03.12.2020 | Prokuror Fuad Məmmədov |
| 6 | Şirvan şəhəri, 30 saylı nümunəvi məhəllə | 29.12.2020 | Prokurorun köməkçisi Nəriman Nərimanlı |

**Rain Əliyev,**
**Şirvan şəhər prokuroru vəzifəsini icra edən ədliyyə müşaviri**

## AZƏRBAYCAN QIZIL AYPARA CƏMİYYƏTİ ŞİRVAN ŞƏHƏR TƏŞKİLATINDAN 2 XƏBƏR

# «ƏSGƏRƏ SALAM» AKSİYASI

**Azərbaycan Respublikasının Prezidenti, Silahlı Qüvvələrimizin Ali Baş Komandanı İlham Əliyevin məqsədyönlü siyasəti nəticəsində ordu quruculuğu sürətlə davam etdirilir. Milli orduya, əsgər və zabitlərimizə qayğı və diqqət artırılır. Nəticədə Azərbaycan ordusu gündən-günə güclənir. Əbəs deyil ki, ordumuz ən güclü ordular sırasındadır. Xalq orduya ordu xalqa arxa,dayaqdır.Əsgər paltarı geyinmiş igid övladlarımız işğal altında olan torpaqlarımızı hər an azad etməyə hazırdırlar.**



Bu ilin iyul ayının 12-də Azərbaycan-Ermənistan dövlət sərhədlərinin Tovuz rayonu istiqamətində gedən döyüşlərdə düşmənin təxribatının qarşısı Azərbaycan ordusu tərəfindən alındı. Azğın düşmən cəsur, mərd ordumuz tərəfindən layiqli cavabını aldı. Belə anda bütün Azərbaycan xalqı ayağa qalxdı. Xalq ordu ilə bir olduğunu bir daha nümayiş etdirdi. Sərhəd zonasında yaşayan həmvətənlərimiz igid əsgər və zabitlərimizə arxayın olaraq yaşayış yerlərini tərk etmədilər.

Bir sözlə, təkrar edirik ki, ordu xalqa, xalq orduya inanır. Xalq ordunu həmişə dəstəkləyir. Şəhərimizin sakinləri də müzəffər ordumuza inanır, onu dəstəkləyir. Bu məqsədlə bir-birindən maraqlı tədbirlər həyata keçirilir.

Bu günlərdə Şirvan Qızıl Aypara Cəmiyyəti də könüllüləri ilə birlikdə xüsusi karantin rejimi qaydalarına riayət edərək «Əsgərə salam» aksiyasına qoşularaq cəbhədə düşmənlə üz-üzə dayanan Vətən keşikçilərini- əsgərlərimizi əsgər salamı ilə salamlamışlar.

Onu da qeyd edək ki, şəhərimizin mərd oğulları, o cümlədən cəmiyyət könüllüləri Prezidentimiz, Silahlı Qüvvələrimizin Ali Baş Komandanı İlham Əliyevin hər bir əmrini vaxtında, dəqiq yerinə yetirməyə hazırdırlar.

# Yardımlar paylanmışdır

**Azərbaycan Qızıl Aypara Cəmiyyəti ABŞ beynəlxalq inkişaf agentliyinin köməyi ilə son vaxtlar 7000 qutu ərzaq və gigiyenik məhsulları regionlarda ehtiyacı olan ailələrə paylayıb.**



O cümlədən, cəmiyyətin xətti ilə şəhərimizdə də bu kateqoriyadan olan ailələrə pandemiya dövründə yüzlərlə imkansız ailəyə gigiyenik və ərzaq məhsulları olan qutular paylanmışdır. Yardım paketləri alan aztəminatlı ailələr, həssas qrupdan olan insanlar, tənha kimsəsizlər, çoxuşaqlı ailənin üzvləri qayğı və diqqətə görə təşəkkür və minnətdarlıqlarını bildirmişlər.

**Gülbikə KƏRİMOVA,**
**Qızıl Aypara Cəmiyyəti Şirvan şəhər təşkilatının gənclər üzrə təlimatçısı**

# TƏLƏBƏ ADINIZ MÜBARƏK!

## 2019-2020-ci dərs ilində Şirvan şəhər ümumtəhsil məktəblərinin qəbul imtahanlarında 500-700 arası bal toplayan məzunlar barəsində

### MƏLUMAT

| | | |
|---|---|---|
| **Mirzəyeva Pəri Zakir qızı** | **1 №li məktəb** | **655 bal** |
| **Məmmədli Ayşən Rəsul qızı** | **1 №li məktəb** | **616 bal** |
| **Əliyeva Lalə Səyavuş qızı** | **1 №li məktəb** | **602 bal** |
| **Axundov Hüseyn İlqar oğlu** | **9 №li məktəb** | **620 bal** |
| **İmanova Afaq Hafiz qızı** | **10 №li məktəb** | **632 bal** |
| **Sədiyeva Kəmalə Vüqar qızı** | **11 №li məktəb** | **603 bal** |
| **Əlizadə Səkinə Azad qızı** | **16 №li məktəb** | ***676 bal*** |
| **Rəhimli Adil Rəhim oğlu** | **16 №li məktəb** | ***658 bal*** |
| **Məmmədli Nigar Eldar qızı** | **16 №li məktəb** | ***634 bal*** |
| **Əhmədov Riyad Bəhruz oğlu** | **16 №li məktəb** | ***633 bal*** |
| **Nəzərova Nilufər Oqtay qızı** | **16 №li məktəb** | ***615 bal*** |
| **Verdiyev Asim Həsən oğlu** | **16 №li məktəb** | ***610 bal*** |
| **Hətəmli Rəhman Ziya oğlu** | **18 №li məktəb** | **634 bal** |
| **Ənvərli Sona Bəhruz qızı** | **20 №li məktəb** | **627 bal** |
| **İmanova Dünyaxanım Əşrəf qızı** | **21 №li məktəb** | **659 bal** |
| **İsmayılzadəTürkan İlham qızı** | **21 №li məktəb** | **648 bal** |
| **Hüseynov Pünhan Sübhan oğlu** | **21 №li məktəb** | **643 bal** |
| **Əlili Əli Çingiz oğlu** | **21 №li məktəb** | **628 bal** |
| Əliyeva Lamiə Şahin qızı | 1 №li məktəb | 585 bal |
| Tağızadə Məhsəti Elçin qızı | 1 №li məktəb | 554 bal |
| Məmmədova Şəbnəm Rövşən qızı | 1 №li məktəb | 544 bal |
| Həsənov Nihad Bəxtiyar oğlu | 1 №li məktəb | 540 bal |
| Ələkbərova Aytac Arif qızı | 1 №li məktəb | 502 bal |
| Qasımov Əli Samir oğlu | 1 №li məktəb | 501 bal |
| Dəmirova İlahə İlham qızı | 3 №li məktəb | 554 bal |
| Axundov Murad Azər oğlu | 9 №li məktəb | 590 bal |
| Qasımzadə Şamil Qabil oğlu | 9 №li məktəb | 574 bal |
| İsmayılzadə İbrahim Vüsal oğlu | 9 №li məktəb | 560 bal |
| Məmmədova Pərvin Şaiq qızı | 9 №li məktəb | 514 bal |
| Axverdiyev Həsən Ramiz oğlu | 9 №li məktəb | 504 bal |
| Fətəliyeva Ləman Həbib qızı | 10 №li məktəb | 599 bal |
| Rüstəmli Elvin Səbuhi oğlu | 10 №li məktəb | 585 bal |
| İsgəndərova Röya Novruz qızı | 10 №li məktəb | 582 bal |
| Ağayev Elgün Elsevər oğlu | 10 №li məktəb | 567 bal |
| Paşazadə Gülər Elşən qızı | 10 №li məktəb | 552 bal |
| Panaliyev Nurlan Azad oğlu | 10 №li məktəb | 524 bal |
| Cəfərzadə Zəhra Əmrail qızı | 10 №li məktəb | 518 bal |
| Muxtarov Mirxan Mehdi oğlu | 10 №li məktəb | 509 bal |
| Fətəliyev Ramal Rauf oğlu | 10 №li məktəb | 500 bal |
| Əzimova Fatimə Bayram qızı | 11 №li məktəb | 502 bal |
| Həsənov Əli Bayram oğlu | 12 №li məktəb | 508 bal |
| Şahbazova İlahə Asif qızı | 14 №li məktəb | 505 bal |
| Dadaşov Mürşüd Emin oğlu | 16 №li məktəb | *593 bal* |
| Rəcəbli Ülvi İlham oğlu | 16 №li məktəb | *590 bal* |
| Mirzəyeva Nurlana Muşfiq qızı | 16 №li məktəb | *581 bal* |
| Məmmədov Hüseyn Gündüz oğlu | 16 №li məktəb | *540 bal* |
| Hüseynli Nihat Rəşad oğlu | 16 №li məktəb | *539 bal* |
| Muradova Aişə Ramiz qızı | 16 №li məktəb | *523 bal* |
| Babanlı Fərid Natiq oğlu | 16 №li məktəb | *521 bal* |
| İsgəndərli Nicat Asəf oğlu | 16 №li məktəb | *503 bal* |
| Məlikov Rövşən Əşrəf oğlu | 18 №li məktəb | 582 bal |
| İbadlı Nuru Mehman oğlu | 18 №li məktəb | 580 bal |
| Əmənova Ləman İlkin qızı | 18 №li məktəb | 560 bal |
| Şirvanova Güney Cavad qızı | 18 №li məktəb | 540 bal |
| Gülali Sevda Qılıncxan qızı | 18 №li məktəb | 521 bal |
| Bayramova Xədicə Firudin qızı | 18 №li məktəb | 506 bal |
| Ağamalıyev Elçin Natiq oğlu | 20 №li məktəb | 553 bal |
| Salmanlı İsmayıl Kərim oğlu | 20 №li məktəb | 522 bal |
| Əliyeva Nisə Niyaməddin qızı | 20 №li məktəb | 522 bal |
| Hüseynova Bikəxanım Sübhan qızı | 21 №li məktəb | 501 bal |
| Babayev Məhəmməd Nazim oğlu | 21 №li məktəb | 500 bal |

**Şirvan şəhər Təhsil şöbəsi**



**2020-ci il bütün dünya üçün böyük sınaq ili olaraq başladı və hələ də bu sınaq davam edir. Bütün dünyanı cənginə alan COVİD-19 virusu təkcə sağlamlığımıza deyil, həm də arzularımıza, gələcəklə bağlı planlaımıza mənfi təsirini göstərdi.**

Virus 2020-ci il abituriyentlərinin qəbul imtahanına hazırlıq dönəmini daha da çətinləşirdirdi. Məktəblərin bağlanması, qısa müddətdə ölkənin hər yerində onlayn dərslərin keçirilməsinə başlanması, buna uyğunlaşmaq, repetitor yanına getmədən, evdən çıxmadan dərs oxumaq, hazırlaşmaq və ən əsası virusun insanların psixologiyasında yaratmış olduğu gərginliyin üst-üstə düşməsi abituriyentlər üçün əsl mübarizə oldu. Belə çətinliklərlə, psixoloji gərginliklə dolu zamanda yüksək bal toplayan abituriyentlərimizin sayı heç də az deyil. Bu il yüksək nəticə əldə etmiş məzunlarımız təkcə özlərini və ailələrini deyil, hər birimizi sevindirdilər. Çünki şad xəbər eşitməyə hər kəsin ehtiyacı var bu il.

Yüksək bal toplayan abituriyentlərimiz sırasında Rəhimli Adil Rəhim oğlu və Nəzərova Nilufər Oqtay qızı var.

Hər iki gəncimiz B.Aslanov adına 16N-li tam orta məktəbin məzunudur. Qeyd edək ki, bu il 16N-li məktəbin şagirdləri arasında yüksək bal toplayan məzunların sayı çoxdur.

Nəzərova Nilufər Oqtay qızı bu ilki qəbul imtahanlarında 615 bal toplayaraq həm ailəsini, həm də ona dərs deyən müəllimlərini sevindirib. Valideynlərinin yolunu davam etdirən Nilufər IV qrup üzrə hazırlaşıb və bu məqsədinə çatıb.- Nilufərlə söhbət zamanı əgər həkimlik olmasaydı, hansı ixtisası seçərdin sualına düşünmədən hüquqşünas olardım, dedi. Onu da qeyd edim ki, Nilufər ciddi, nizam, intizamlı xarakterə malik qızdır.

**Rəhimli Adil Rəhim oğlu da ailəsini, müəllimlərini topladığı balla sevindirib. IV qrup üzrə hazırlaşan gəncimiz qəbul imtahanında 658 bal toplayaraq Müalicə işi fakültəsinə daxil olub. Adilin ən çox sevdiyi fənn biologiyadır. Hətta həkimliyi seçməsəydim biologiya fənni üzrə müəllimlik ixtisasını seçərdim, deyir. Özü də biologiyanın daha dərinliklərinə enmək, onu daha yaxşı öyrənmək, bu sahədə daha irəliyə getmək istədiyini söylədi.**

Pandemiya hər iki gəncimizə çətinliklər yaratmışdır. Xüsusən onlayn təhsil zamanı yaranan texniki problemlər, günlərlə evdən çıxmadan, dərslərin yalnız nəzəriyyəsini öyrənmək, müəllimlər və sinif yoldaşları ilə üz-üzə fikir mübadiləsi apara bilməmək böyük çətinliklərə səbəb olub. Amma belə bir vəziyyətdə uğur qazandıqları üçün hər iki gəncimiz onları dəstəkləyən ailə üzvlərinə, dərslərindən geri qalmasınlar deyə saatlarla kompüter, telefon arxasında əyləşərək onlayn təhsil verən müəllimlərə təşəkkür etdilər.

Həm Adil, həm də Nilufər onlara dərs deyən müəllimlərin onların uğur qazanmaları üçün böyük qayğı və diqqət göstərdiklərini dilə gətirdilər. Lakin məktəbdə



ən böyük dəstəkçilərinin fizika müəllimi Günel Əkbərova olduğunu söylədilər.

Hər iki gəncimiz onların uğur qazanmaları, gələcəklərinin parlaq olmasını çox istəyən, onlarla birgə həyəcanlanan, sevinən Günel müəllim haqqında ağızdolusu danışdılar. Nilufər ailədə dayısının, xüsusən də nənəsi, tanınmış, təcrübəli pedaqoq Gözlər Xanmirzəyevanın ona böyük dəstək olduğunu söylədi. Adil də ailədə ən böyük dəstəkçisinin nənəsi olduğunu söylədi.

Onu da qeyd edək ki, gənclərimizin gələcəklə bağlı böyük arzuları, planları da var. Onlar təhsillərini xaricdə davam etdirmək fikrindədirlər.

Həyatda uğur qazanmağın ən əlverişli yolu özünə inanmaq, əzmli olmaq, məqsədinə nail olmaq üçün səylə çalışmaqdır. Bu günə qədər böyük uğurlar əldə etmiş hər kəs bunu söyləyir.

Virusun bütün dünyanı cənginə alıb hər bir sahədə problemlər yaratdığı vaxtda qarşısına qoyduğu məqsədinə çatan hər kəsə uğurlar diləyirik, o cümlədən Nilufər və Adilə də. Belə gənclərin valideynlərinə, müəllimlərinə və gənclərin özlərinə təşəkkür edir, parlaq gələcək diləyirik. Tələbə adınız mübarək!

**Aidə Cənnətqızı**

---

**Kəmalə anası kimi müəllim olmaq arzusunda idi. Amma ibtidai sinif müəllimi yox, coğrafiya müəllimi kimi fəaliyyət göstərmək istəyirdi.**

Orta məktəb illəri tez ötüb keçdi. Xüsusilə, 2019-2020-ci tədris ili. Bu ilin əvvəlindən pandemiya ölkəmizi də bürüyəndə məktəblər bağlandı. Hər gün dolub boşalan sinif otaqları, dəhlizlər, məktəb həyəti sükuta daldı. Böyük arzularla yaşayan oğlan və qızlar ruhdan düşmədilər. Onlayn tədris üsulundan istifadə etməklə dərslərinə hazırlaşmağa başladılar. Belə günlərdə müəllimlər, valideynlər şagirdlərə arxa, dayaq oldular. Onlara ruhdan düşməyə imkan vermədilər. Kəmalə Sədiyeva da ali məktəbə qəbul imtahanlarına ciddi hazırlaşırdı. Coğrafiya müəllimi Yusif Haxverdiyev, tarix müəllimi Lalə Allahverdiyeva və digər pedaqoqlar bu işgüzar qızın hazırlığından həmişə razılıq edirdilər. Kəmalə demək olar ki, öz müəllimlərinin köməyi-



nə arxalandı. Yəni repiditor müəllimlərdən çox az bəhrələndi.

Dərslərə ciddi hazırlaşan Kəmalə zəhmətinin itməyəcəyinə inanırdı. Müəllimləri də onu əmin etmişdilər ki, bir neçə aydan sonra tələbə adı qazanacaqdır. Bu belə də oldu. Həyəcanlı imtahan günü arxada qaldı. O, 600-dən çox (603) bal topladığını biləndə sevincinin həddi-hüdudu olmadı.

Yüksək bal toplaması onu arzusuna çatdırmışdı. Kəmalənin seçimi bir idi: coğrafiya müəllimi ixtisasına yiyələnmək! Bu arzu çin oldu.

K.Sədiyeva digər tələbə adı qazanan yoldaşları kimi sevincli günlərini yaşayır. Valideynlərinə, müəllimlərinə böyük sevinc bəxş etmiş bu qız tarix-coğrafiya müəllimi kimi Şirvana dönəcəyini söylədi. Dedi ki, mənə dərs demiş müəllimlərimlə bir yerdə-11 nömrəli tam orta məktəbdə çalışmaq arzusundayam. Amma məni qarşıda çətin tələbəlik günləri gözləyir. Çalışacağam ki, orta məktəbdə olduğu kimi, universitetdə də fərqlənim. Müəllimlərimi düzgün cavablarımla razı salım. Bunun üçün çox mütaliə etməli, müəllimlərimin tapşırıqlarını dəqiq yerinə yetirməliyəm.

Söhbətimizin sonunda Kəmalə ona dərs demiş bütün müəllimlərə, məktəb rəhbərliyinə təşəkkürünü bildirdi.

**Musaxan HEYDƏRLİ,**
**ictimai müxbir**

---



**Şirvan şəhər S.Hüseynov adına 1 nömrəli tam orta məktəb-xüsusi istedadlı şagirdlər liseyinin oğlan və qızları 2019/2020-ci tədris ilini yüksək nailiyyətlərlə başa vurdu.**

Məktəbimizin məzunları ənənəni davam etdirərək bu il də qəbul imtahanlarında yüksək nəticələr göstərərək fərqləndilər. 9 nəfər məzunumuz ali məktəblərə qəbul imtahanında 500 və 600-dən yüksək bal toplayaraq tələbə adının qazandı. Ümumilikdə isə ali məktəbə sənəd vermiş 30 məzundan 28 nəfəri tələbə oldu. Bu kollektivin illərdir davam edən böyük uğurudur.

Məzunlarımızdan biri də Mirzəyeva Pəri Zakir qızıdır. O, 2003-cü ildə Şirvan şəhərində anadan olmuşdur. 2009-cu ildə S.Hüseynov adına 1 nömrəli tam orta məktəbin 1-ci sinfinə daxil olmuşdur. Pəri məktəbə qədəm qoyduğu ilk gündən bacarığı, istedadı, səmimi davranışları ilə öz sinif yoldaşları arasında fərqlənməyə başlamışdı. Bütün dərslərinə eyni həvəslə, məsuliyyətlə, maraqla yanaşan Pəri 4-cü sinifi bitirdikdən sonra məktəbin nəzdində fəaliyyət göstərən xüsusi istedadlı şagirdlər liseyinə daxil oldu. Liseyin yüksək təhsil imkanları Pərinin daha dərin biliklərə yiyələnməsinə hərtərəfli şərait yaratdı. Artıq öz bilik və bacarığı ilə fərqlənən Pəri müxtəlif intellektual bilik yarışlarında uğurla iştirak etməyə başladı və dəfələrlə qalibiyyət sevincini yaşadı. Həm "Xəmsə" Milli İntellektual bilik yarışında, həm "Əlaçı" intellektual televiziya yarışında, həm də "Brain Ring" intellektual televiziya oyunlarında uğurlu çıxışları ilə öz yüksək bilik və bacarığını nümayiş etdirdi.

IX sinfi fərqlənmə attestatı ilə başa vuran Pəri ənənəsinə sadiq qalaraq XI sinfi də fərqlənmə attestatı ilə başa vurmağa nail oldu. Ali məktəbə qəbul imtahanında isə 655 bal toplayaraq həm məktəbin həm də şəhərimizin adını yüksəklərə ucaltdı. Onun ən böyük arzusu hüquqşünas olmaqdır. O bu məqsədinə nail olmaq üçün durmadan çalışır. Bütün məqsədlərini də məhz bu istək üzərinə kökləyib. Bunun başlıca səbəbi isə hüquqa, haqqa, ədalətə olan inam və sevgisidir. Qəbul imtahanında qazandığı yüksək nəticə onu bu məqsədinə çatdırdı.

**Elnur NOVRUZOV,**
**məktəb-liseyin direktor müavini**

# Əbədiyyət qazanmış Üzeyir bəy ömrü...




**18 sentyabr Milli Musiqi Günündə Şirvan şəhər Uşaq Musiqi məktəbinin kollektivi Azərbaycan musiqisinin tacı, mədəniyyət tariximizdə silinməz izlər qoyan, peşəkar musiqi sənətimizin və milli operanın banisi, musiqişünas alim, publisist, dramaturq, pedaqoq və ictimai xadim olan Üzeyir Hacıbəylinin 135-ci il dönümünə həsr olunmuş video konfrans keçirdi.**

Konfransı məktəbin direktoru Əbülfət İsmayılov açaraq müəllimləri salamlayıb, onları " Milli Musiqi Günü" münasibətilə təbrik edərək, milli sərvətimiz olan musiqimizin, mədəniyyətimizin hər zaman zirvələrdən səslənməyini arzu etdi. Milli musiqimizi gələcək nəsillərə incə zövqlə aşılayan müəllimlərimizə işlərində bol-bol nəaliyyətlər arzu etdi.

Sonra Əbülfət müəllim dahi Üzeyir bəyin yaradıcılığından geniş danışaraq, Şərqdə ilk operanın yaranmasının Üzeyir bəyin adı ilə baglı oldugunu vurğuladı. "Leyli və Məcnun" operası ilə o, təkcə Azərbaycanda deyil, bütün müsəlman şərqində opera sənətinin əsasını qoyması, "Leyli və Məcnun" ilə musiqi tarixində operanın yeni növü - mugam operası yaranmasını deyən Əbülfət müəllim operanın musiqisinin əsasən Azərbaycan musiqi mədəniyyətinin incisi olan mugam və təsniflər üzərində quruldugunu da diqqətə çatdırdı. "Leyli və Məcnun" operası illərlədir yeni-yeni quruluşlarda tamaşaya qoyulsa da, öz təravətini itirmədiyini söyləyən Əbülfət İsmayılov onun bundan sonra da neçə-neçə ustad xanəndələr, neçə Leylilər, neçə Məcnunlar yetişdirəcəyini söylədi.

Sonra çıxış üçün söz məktəbin fortepiano müəllimi Şəfaqət Hacıyevaya verildi. Şəfaqət müəllim Üzeyir bəyin zəngin yaradıcılıgı haqqında ətraflı danışaraq, onun yaradıcılıgının zirvəsinin "Koroglu" operası oldugunu, bu əsərində müəllifin klassik opera qaydaları əsasında bitkin ariyaların, kütləvi xor səhnələrinin yaratdıgını söylədi. Şərq bəstəkarlığının inkişafına əsaslı təkan verən "Koroglu" operasının Azərbaycan musiqi tarixində haqlı olaraq əbədilik yer tutdugunu söylədi.

Daha sonra nəzəriyyə müəllimi Nailə Rəhimovaya söz verildi. O da Üzeyir bəyin əziz, işıqlı xatirəsinin millətimizin yaddaşında və dünya musiqi tarixində daim yaşayacagını söylədi. Korifey sənətkarın elmi-nəzəri məqalələrinin, "Azərbaycan xalq musiqisinin əsasları" monoqrafiyasının milli musiqi elmimizin inkişafı üçün qiymətli töhfə oldugunu söylədi.

Hər bir kəs etiraf edə bilər ki, Ü.Hacıbəyli haqqında söz demək olduqca böyük məsuliyyət, eyni zamanda bilik və geniş erudisiya tələb edir. Bu gun keçirilən videokonfransda Üzeyir bəy haqqında deyilən bütün sözlər bu günkü musiqi mədəniyyətimizdə öz əksini tapmışdır. Azərbaycan milli musiqisi öz qüdrətli istedadını xalqa sərf etmiş Üzeyir Hacıbəylinin adı ilə qırılmaz tellərlə baglıdır.

**"İŞIQ"**

## ŞİRVAN MƏTBUATI - 90

# QƏZETLƏRİMİZİN REDAKTORLARI

## 5. Vəli Ələkbərov

**Desəm ki, bu şəhərdə Vəli müəllimi tanımayan tapılmaz, səhv etmərəm. Söhbət gənclik illərindən keçmiş Əli Bayramlı, bu günki Şirvan şəhərində məsul vəzifələrdə işləmiş Vəli Ələkbərovdan gedir.**



İşgüzar, tələbkar, təmiz, səliqəli rəhbər işçi olmuş V.Ələkbərov ixtisasca tarix müəllimi olub. Savadlı müəllim kimi də həmişə fərqlənib. Vəli müəllimə hansı vəzifə etibar edilibsə, o işgüzarlığı ilə etimadı doğruldub, kollektivdə və şəhərdə böyük nüfuz sahibi olub.

Əli Bayramlı şəhər statusu alana kimi Partiya Komitəsində təbliğat-töşviqat şöbəsinin müdiri, sonralar şəhər XDS İcraiyyə Komitəsinin sədri vəzifələrini şərəflə daşıyıb.

Vəli müəllim gözəl natiq və səriştəli qələm sahibi idi. Şəhərin ictimai-siyasi həyatında da fəal iştirak edir, müxtəlif rəsmi və bayram tədbirlərində maraqlı çıxışları ilə auitoriyanın diqqətini özünə cəlb edə bilirdi. Onun çıxışları alqışlarla qarşılanırdı.

Qeyd etdim ki, Vəli müəllim yaxşı qələm sahibi idi. Tez-tez Əli Bayramlının «Pambıq zərbəçisi», sonra «Yüksəliş uğrunda» qəzetlərində rayon həyatından bəhs edən onlarla yazılarla çıxış edib. Onun imzası fəal yazar kimi respublika mətbuatında da tez-tez görünürdü.

1960-cı il. Vəli Ələkbərov rayon partiya komitəsində təbliğat-təşviqat şöbəsinin müdiri işləyirdi. «Yüksəliş uğrunda» qəzetinin fəaliyyətinin gücləndirilməsi məqsədi ilə V.Ələkbərov adı çəkilən qəzetə redaktor təyin olundu.Vəli müəllim ilk gündən bu qəzet redaksiyası ətrafına istedadlı, səriştəli yazarları toplayıb. Möhsüm Xəlilov, Sədi Baxşiyev, Arif Hadıyev, Sabir Gözəlov, Həsənağa Səmədov və başqaları az vaxtda qəzeti oxucularının sevimlisinə çevirmişlər.

Vəli müəllim təxminən 2 il bu qəzetə rəhbərlik edib.

Həmin dövrdə partiya təşkilatlarının strukturlarında aparılan dəyişikliklərlə əlaqədar «Yüksəliş uğrunda» qəzeti də fəaliyyətini dayandırmalı olur. Amma savadlı kadr kimi Vəli müəllimə hər sahədə ehtiyac vardı. O elə 1962-ci ildə rayon XDS İcraiyyə Komitəsinin sədr müavini, sonra sədri seçilir.

Keçmiş Əli Bayramlının, bu günkü Şirvan şəhərinin sürətli inkişafı 1963-cü ildən başlayır. Əli Bayramlı rayonu respublika tabeliyində şəhər ststusu alandan sonra burada qaynar iş başlayır. Bu gün də bu şəhər sakinləri tərəfindən adı hörmətlə çəkilən qurucu, yaradıcı şəhər rəhbəri adlandırılan Bilal Musa oğlu Kərimovla birgə Vəli müəllim şəhər «meri» kimi bu şəhərin abadlaşdırılması və çiçəklənməsi yolunda əlindən gələni əsirgəmir. Yeni-yeni parklar, küçələr, xiyabanlar salınır, stadionlar, kino-teatr binaları tikilir

Şəhər sakinlərinin qüvvəsinin bu istiqamətdə işə cəlb edilməsində Vəli müəllim əlindən gələni əsirgəmirdi. Amma qəzetdə redaktor işlədiyi günləri də unutmurdu. 1965-ci ildən «İŞIQ» adlı qəzet capa başlayandan sonra da qələmini işə saldı. Qəzetdə tez-tez maraqlı yazılarla çıxış edirdi.

Sonradan Vəli müəllim məktəb direktoru, Təhsil şöbəsinin müdiri, şəhər icra hakimiyyətində məsul vəzifələr daşıdı.

Vəli müəllim ictimaiyyətçi kimi də fərqlənirdi. Uzun illər şəhər Ağsaqqallar Şurasının sədri işlədi. 2016-cı ildə haqq dünyasına qovuşana kimi şəhərin ictimai -siyasi həyatında yaxından iştirak etdi.

Bu gün də Vəli müəllim şəhər sakinəri tərəifndən gözəl insan, əsl ziyalı kimi xatırlanır.

**F.RƏHİMOV**

# Valideyn-övlad münasibətlərinin pedaqoji, psixoloji əsasları

**Ailə cəmiyyətin kiçik bir hissəsidir. İnsanın doğulduğu gündən təməli, özünə məxsus şəxsi psixoloji xüsusiyyətləri, tərbiyəvi cəhətləri, xarakteri məhz ailədə qoyulur. Ailədə hər mənada sağlam psixoloji mühitin olması çox vacibdir. Sağlam psixoloji mühit olan ailədə düzgün qarşılıqlı münasibət, anlayış hörmət, mədəniyyət, ünsiyyət çox yüksək səviyyədə olur.**



**Nərmin Bədirova,**

***Şirvan şəhər S.Hüseynov adına 1 nömrəli tam orta məktəb-liseyin psixoloqu***

Ailədə valideynlər bir-biriləri ilə düzgün ünsiyyət qurmalı, bir-birilərinə hörmət göstərməlidir. Bəs ailə mühitinin psixoloji baxımdan sağlam olması üçün hansı şərtlər lazımdır?

Ailə quran zaman tərəflər bunun ciddi, məsuliyyətli olduğunu bilməlidir. Ailə həyatı çox məsuliyyətli bir vəzifədir. Burada hər iki tərəfin bir-birinə qarşılıqlı hörməti və dəyəri olmalıdır. Ailənin sağlam psixoloji mühitə sahib olması qadın və kişidən çox asılıdır. Xarakter baxımından tərəflər arasında fərqlər ola bilər, ancaq qadın və kişinin özünə aid bəzi ortaq cəhətləri olmalıdır ki, bir-biriləri ilə düzgün səviyyədə anlayış göstərərək ünsiyyət qursunlar. Ortaq cəhətlərdə ən vacib mənim fikrimcə tərbiyəvi cəhətlərin, əxlaqın, mədəniyyətin olmasıdır. Əgər hər iki tərəfdə bu cəhətlər üstünlük təşkil edirsə, ailəni sağlam formada formalaşdırmaq olar. Amma qadın ilə kişidə sadalanan cəhətlər bir-birinə uyğun gəlmirsə, ailədə nə vaxtsa bəzi problemlər yarana bilər, məsələn, boşanma, xəyanət və s. Ona görə ailə həyatı quran zaman qadın və kişi tələsməməlidir, bir-birilərini yaxından tanımalıdırlar və qərarlarını düzgün verməlidirlər.

Ailədə övladın sağlam psixologiyaya sahib olması üçün nə lazımdır? Bunun üçün valideynlər nə etməlidir?

Ailədə sağlam psixoloji mühitin olması valideyn üçün vacib olması ilə yanaşı həmçinin övladında psixoloji durumuna çox təsiri olur. Sağlam psixoloji mühit olan ailədə uşağın tərbiyəsinin yaxşı olması ilə bərabər onun davranışları, insanlara olan münasibətinə də təsiri yaxşı olur. Belə uşağın davranışı sakit olur, etik qaydalara uyğun hərəkət edir. Ailədə ilk növbədə ana və atanın övladla ünsiyyəti düzgün səviyyədə olmalıdır. Ünsiyyət quran zaman valideynlər övladlarına qarşı sevgi ötürməli, onlarla səmimi söhbət etməlidirlər. Söhbətin məzmununda övlad nəsihətlərinə aid kitablardan, həyatda olan təcrübələrdən, uşaq ikən yaşadıqları maraqlı xatirələrdən danışmaq faydalı olar.

Söhbət edərkən uşağın sizə birinci növbədə güvənməsi, inanması çox vacib şərtdir. Güvən olan zaman sevgi də yaranacaq. Nəticədə övladınız çətinə düşdüyü məqamlarda fikirlərini, problemlərini sizinlə paylaşmaq istəyəcək. Övladı hər şeydən öncə dəyərli hesab etmək lazımdır. Onlarla danışarkən empatiya qurun yəni, övladınızın nə hiss etdiyini anlamağa çalışın. Övladınızın hisslərini öz hisslərinizlə eyniləşdirin. Bu sizə daha yaxşı anlayış yaratmağınıza və müsbət mənada təsirli nəticələr göstərəcəyinizə köməklik göstərəcək.

Övladınızla danışdığınız zaman "mən sənə inanıram", "sən mənim üçün dəyərlisən", "sən bizim ən dəyərli övladımızsan", "biz səninlə fəxr edirik", "yaxşı ki varsan" və s. bu sözləri onlara deyə bilərsiz. Övladınızın sıxıntılarını hiss etdiyiniz zaman mütləq onu danışdırmağa çalışın və bacardığınız qədər onu dinləyin. Əgər səhvi varsa anlayışlı qəbul edin.

Keçid dövrlərində uşaqlar emosional sıxıntı keçirirlər. Dəstəyə, qayğıya ehtiyac duyurlar. Ən çətin dövr yeniyetməlik dövrü hesab olunur. Ona görə bu dövrü bəzi uşaqlar çətin keçirə bilərlər. Yeniyetmənin psixoloji durumunda depressiya meyllilik, qapalılıq, aqressiya, kobudluq, səbrsiz olmaları və s. yaranır. Valideynlər çox diqqətli olmalarıdır. Hər valideyn yeniyetməlik yaş dövründə olan övladının davranışlarına diqqət etməli, əgər ciddi durum varsa, mütləq şəkildə aradan qaldırılmasına köməklik göstərməlidir. Bəzi valideynlər işləri çox olduğu üçün övladına kifayət qədər vaxt ayıra bilmir. Bəzi hallarda isə valideynlər övladlarına qarşı çox sərtlik göstərir, hər hərəkətini təhlil edir, nəticədə uşağın psixoloji durumunda qorxu yaranır, problemini paylaşa bilmir. Bəzən də uşaq problemini valideyninə danışarkən valideyn bunu düzgün qarşılamır, sərt reaksiya göstərir. Övladında səhv olmadığı halda günahlandırır, yaxud fiziki zorakılıq göstərir. Hər bir valideyn bu hallarda övladını diqqətlə dinləməli, ona problemin həlli yollarını düzgün göstərməlidir.

Bu gün cəmiyyətdə yaranan problemlərin əksəri ailədən qaynaqlanır. İntihar, erkən nikahlar, narkomaniya, spirtli içkilərə meyllilik. Bu problemlərin kökü mən düşünürəm ki, ailə mühitindən, ailə münasibətlərindən yaranır. Ailədə əvvəldə qeyd etdiyim kimi sağlam mühit yoxdursa, mübahisələr tez-tez olursa, ailədə zorakılıq halları varsa uşağın psixologiyası sağlam olmayacaq. Nəticədə uşaq ailədə görüdklərini cəmiyyətdə icra edəcək və həmin tərbiyəyə sahib olacaq. Uşaq ailədə şiddət gördüyü halda onun psixoloji durumunda bəzi narahat hallar yaranır.

Beyin mərkəzi sinir sistemi sayılır. Əsəb, gərginlik yaşadığımız zaman beyində qan dövranı pozulur, orqanizmdə halsızlıq,ruh düşkünlüyü yaranır. Bədən ruhsal olaraq zəifləyir. Nəticədə psixoloji sağlamlıq pozulur. Psixoloji sağlamlıqla fiziki sağlamlıq bir-birilə əlaqəlidir. Biz güldüyümüz, sevindiyimiz zaman beyin xoşbəxtlik hormonlarını qəbul edir. Əvvəlkindən fərqli şəkildə orqanizm canlanır, beyində qan dövranı normal vəziyyətinə qayıdır, orqanizmdə müsbət emosiyalar yaranır. Bu zaman insan əylənmək, ünsiyyət qurmaq, gələcək barədə işlər görmək istəyir. Necə dəyərlər: "Gülmək ömür uzadır".

Əziz valideynlər, övladlarınızı sevin, onlar həyatınızın günəşidir. Həyatda sizə dayaq, dəstək olan sehirli qüvvələrdir. Allahın yaratdığı heç bir bəndə pis ola bilməz. Pis hesab edilənlər sağlam davranışla dünyaya gələn, ancaq səhv istiqamətdə verilən davranışların nəticəsidir. Belə bir deyim var; "Hər uşaq kəşf olunmağa hazır bir ulduzdur". Əgər övlada sahibsizsə dünyada möcüzəli bir nemətə sahibsiz. Övladın hər valideyn üçün dəyəri var. Bilirəm ki, uşaqların gələcəyi üçün zəhmət çəkən valideynlər çoxdur. Hazırda maddi imkanı zəif olan, ancaq uşağının təhsilinə üstünlük verən valideynlər də çoxdur. Onlar övladlarına parlaq gələcək bəxş etmək üçün əllərindən gələni əsirgəmirlər.Əziz valideynlər, övladlarınızın ilk növbədə təhsil almaları üçün əlverişli şərait yaradın. Yaxşı təhsil cinsindən asılı olmayaraq hər övlad üçün böyük bir dəyərdir. Təhsil alan uşağın davranışı, xarakteri və gələcəyi uğurlu olur. Təhsil uşağın mənəviyyatını zənginləşdirir, ona həyatı təcrübə qazandırır.

Həyat gözəlliklərlə doludur. Gözəl olan insanın ruhudur, qəlbidir, hissləridir. Ruhunuzun, qəlbinizin, hisslərinizin hər zaman sevgi ilə dolu olmağını arzulayıram ! Bir də ki, heç vaxt zəhmətiniz itməsin. Övladlarınızdan yarıyasınız.

## ALLAH RƏHMƏT ELƏSİN

Şirvan şəhər Mərkəzi xəstəxanasının kollektivi qocaman həkim
**ABDUL ABDULLAYEVİN**
vəfatından kədərləndiklərini bildirir, mərhumun ailəsinə, əzizlərinə dərin hüznlə başsağlığı verir.

Baş redaktor:
F.N.RƏHİMOV

*Təsisçilər:*
Şirvan şəhər İcra Hakimiyyəti başçısının aparatı və "İşıq"qəzetinin jurnalist kollektivi

Müəllifin və redaksiyanın mövqeyi üst-üstə düşməyə bilər

Materiallar redaksiyanın kompüter mərkəzində yığılıb səhifələnmişdir

Qəzet BZ mətbəəsində çap olunmuşdur.

Telefonlarımız:
Baş redaktor: 6-35-60
Redaktor müavini: 6-31-35
E-mail: ishiq.qezeti@gmail.com

Ünvanımız:
Şirvan şəhəri,
İ.İ.Qayıbov küçəsi 16,
Şəhadətnamə №161
İndeks: 66858
Tiraj: 650